https://doi.org/10.58225/sw.2023.1-138-143

ƏHALİNİN İÇMƏLİ SU İLƏ TƏMİNATININ ƏSAS İSTİQAMƏTLƏRİ

Əliyeva Ruhəngiz Tofiq qızı- i.ü.f.d., dos., Sənayenin təşkili və idarə edilməsi kafedrası, AzMİU, ruhangiz.aliyeva@azmiu.edu.az
Babaşov Əmirxan Mehralı oğlu- i.e.n., dos., Sənayenin təşkili və idarə edilməsi kafedrası, AzMİU, amirxan.babashov@azmiu.edu.az
Qurbanova Qərənfil Süleyman qızı- laborant, Sənayenin təşkili və idarə edilməsi kafedrası, AzMİU, garanfil.gurbanova@azmiu.edu.az

Xülasə. Azərbaycanda əhalini içməli su ilə təmin etməkdə fundamental tədbirlər həyata keçirilir. Məhdud su ehtiyatlarının olması içməli sudan qənaətlə istifadə edilməsi haqqında inzibati və hüquqi qaydalara əməl edilməsi genişləndirilir. Təbiətdə suyun çox olmasına baxmayaraq yer kürəsi əhalisinin on faizi içməli su çatışmamazlığı ilə üzləşir. Çox təəssüflər olsun ki, Azərbaycan da il ərzində adambaşına az içməli su düşən dövlətlər arasındadır. Düzdür əhalinin içməli su ilə təmin edilməsi üçün ölkədə olan şirin su mənbələrindən geniş surətdə istifadə olunur. Transsərhəd çay sularından istifadədə hələ də problemlər mövcuddur. Qeyd edilməlidir ki, ölkədə istehsal olunan sənaye məhsulları strukturunda su təchizatı, tullantıların təmizlənməsi və emalının xüsusi çəkisinin artması yaxşı meyldir. Şirin su ehtiyatlarının azalması dövründə içməli sudan israfçılıqla istifadə edilməsinə yol verilməməsi barədə tədbirlər həyata keçirilir.
Açar sözlər: su, bulaq, su kəməri, su ehtiyatları, transsərhəd çay suları, artezian

THE MAIN DIRECTIONS OF PROVIDING THE POPULATION WITH DRINKING WATER

Aliyeva Ruhangiz Tofiq-PhD in economics, ass.prof., department of Organization and management of industry, AzUAC, ruhangiz.aliyeva@azmiu.edu.az
Babashov Amirkhan Mehraly- PhD in economics, ass. prof., department of Organization and management of industry, AzUAC, amirxan.babashov@azmiu.edu.az
Gurbanova Garanfil Suleyman- laboratory assistant, department of Organization and management of industry, AzUAC, garanfil.gurbanova@azmiu.edu.az

Abstract. Fundamental measures are being taken in Azerbaijan to provide the population with drinking water. In the presence of limited water resources, compliance with administrative and legal norms for the economical use of drinking water is expanding. Despite the abundance of water in nature, ten percent of the world's population faces a shortage of drinking water. It is a pity that Azerbaijan is among the countries where drinking water per capita during the year is small. Indeed, fresh water sources in the country are widely used to supply the population with drinking water. Problems remain with the use of transboundary river waters. It should be noted that the increase in the share of water supply, waste treatment and processing in the structure of industrial production in the country is a good trend. Measures are being taken to prevent the wasteful use of drinking water during a period of declining fresh water supplies.
Keywords: water, spring, water supply, water resources, transboundary, artesian

Giriş. Ulu yaradanın bəşər övladına bəxş etdiyi mühüm möcüzələrdən bəlkədə birincisi sudur. İnsanlara həyat verən suyun olmaması cəmiyyətin məhv olması deməkdir. Su insanların sağlamlığına, xoşbəxtliyinə, həyatının firavanlığına imkan verən elə sirli nemətdir ki, onu heç bir başqası ilə müqayisə etmək olmaz. Rənksiz (qalın təbəqələri göyümtül), dadsız və iysiz maye olan su yerin geoloji tarixində, həyatın əmələ gəlməsində, planetin iqliminin formalaşmasında çox böyük rola malikdir. Tarixin bütün dövlərində su həmişə həyat mənbəyi kimi qiymətləndirilmişdir. Hətta antik

dövr filosoflarının su haqqında təsəvvürləri Aristotelin dörd maddə haqqında təlimində (od, hava, torpaq, su) öz əksini tapması heç də təsadüfi deyildir.

Tədqiqat metodları. Təbiətdə ən geniş yayılmış su istər əhalinin həyatında, istər kənd təsərrüfatında, istərsə də sənayedə zəruri komponent olmaqla atmosferada buxar, duman, bulud, yağış damcıları və qar kristalları şəklində mövcuddur. Hazırda yer kürəsində əhalinin hər birinə 250 milyon ton su düşməsinə baxmayaraq suyun 97 faizi Dünya okeanın duzlu sularını, əhalinin istifadə etdiyi quru suları Yer kürəsindəki suyun cəmi 3 faizini təşkil etdiyindən içməli su problemi ölkələr üzrə çox ağır vəziyyətə düçar olmuşdur. Belə ki, təbiətdə istifadə oluna biləcək içməli su resursları bütün hidrosferanın cəmi 2 faizini təşkil etdiyindən dünya əhalisinin 10 faizindən çoxu su qıtlığından əziyyət çəkir. Dünyada il ərzində adam başına düşən içməli su ilə təminatında ilk 5 yeri Kanada (90104 m^3), Yeni Zelandiya (81562m^3), Braziliya (30680 m^3), Rusiya (29944 m^3), Avstaliya (24747 m^3) tutduğu halda, il ərzində adambaşına düşən suyun miqdarı ən az olan 5 yeri Misir (30m^3), Türkmənistan (206m^3), Pakistan (350 m3), Azərbaycan (972m^3) və Hindistan (1185 m^3) tutur. Su ehtiyatlarından səmərəli istifadə edilməsi, ekoloji cəhətdən qorunması, suların mühafizə olunması və s. bu gün bütün dünyada olduğu kimi ölkəmizdə də əsas problemlərdən biridir. Çünki hazırda ölkədə əhalinin ümumi sayının artımı və iqtisadiyyatın bütün sahələrinin yüksək inkişafı təmiz su ehtiyatlarına olan tələbatında ciddi dəyişikliklər əmələ gətirmişdir. Su qıtlığı transsərhəd, yəni su mənbəyindən iki və daha artıq ölkənin istifadə etdiyi hövzələrdə daha kəskin şəkildə özünü göstərir.

Azərbaycan Respublikası dünyanın bir sıra ölkələri ilə birlikdə 1992-ci il 17 mart tarixində Helsinkidə qəbul olunmuş "Transsərhəd su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsinə dair konversiya"nı 2000-ci il 14 mart tarixində ratifikasiya etmişdir. Transsərhəd çay sularının qonşu dövlətlərin ərazisində çirklənməsi Azərbaycanda ekoloji gərginliyin artmasına, ekosistemin-canlı və cansız komponentlərin bir-biri ilə sıx əlaqədə olduğu su mənbələrinin korlanmasına səbəb olur. Həmin çayların sularına çirkləndirici maddələr olan fenol, mis, neft məhsullarının miqdarı sanitariya normalarından 10-15 dəfə çox olur. Su ehtiyatları olduqca məhdud olan Azərbaycan ərazisindəki Kür, Araz, Samur, Qanıx, Qabırrı və s. tranzit iri çaylar ümumirespublika içməli su ehtiyatlarının üçdə ikisini təşkil edir. Ölkənin Kür, Araz, Samur və digər çaylarının ekoloji problemləri olsa da, onların içərisində daha acınacaqlı ekoloji durumu olan Araz çayıdır. Araz çayının bir qolu olan Oxuçay vasitəsi ilə Ermənistan ərazisindən kimyəvi çirkli sular və yüksək dərəcədə zərərli maddələr axıdılması nəticəsində çayın suyunda mikroflora və mikrofauna məhv olur, çayın özünütəmizləmə prosesi çətinləşir. Bu məsələni həll etmək üçün beynəlxalq konvensiyaların tələbinə uyğun tədbirlərin həyata keçirilməsinə nail olmaq lazımdır.

Transsərhəd çaylarda su ehtiyatlarında istifadə edilməsi ilə bağlı Azərbaycanla Gürcüstan hökümətləri arasında ikitərəfli saziş imzalanmış, Azərbaycan və İran arasında Araz çayının suyundan birgə istifadə edilməsi ilə əlaqədar komissiya fəaliyyət göstərsədə, işğalçı Ermənistanla transsərhəd çaylarından istifadə edilməsi və mühafizə olunması ilə bağlı məsələlərin həlli hələki mümkün olmamışdır [2].

Müzakirələr. Su insan bədənin bütün maye toxuma tərkibinə daxil olmaqla bədənin təxminən 65 faizini təşkil edir ki, buda insanın bir ay qidasız yaşasada, susuz cəmi bir neçə gün yaşaya bilməsinə səbəb olur. Su insan orqanizminin həyat fəaliyyəti üçün lazım olan üzvi və qeyri-üzvi maddələri həll edir,orqanizmdə müxtəlif maddələr mübadiləsi prosesində katalizator rolunu oynayır. Ehtimal ki, həyat su mühitində yaranıb, susuz həyat yoxdur. Su çatışmamazlığında orqanizmin həyat fəaliyyəti pozulur.

Azərbaycanda qədim zamanlardan yeraltı sulardan bulaqlar, əl quyuları və kəhrizlər vasitəsilə geniş istifadə olunmuşdur. Hazırda bunlardan əlavə müxtəlif tip su götürücüləri olan artezian və subartezian quyuları, drenlər və s. vasitəsilə yeraltı su iqtisadiyyatın müxtəlif sahələrinin tələbatı üçün işlədilir. Respublika ərazisində çoxsaylı artezian və subartezian quyusu, əl quyusu, kəhriz və qrup su götürücüləri tikilmiş, yüzlərlə bulaqlar inşa edilmişdir.

Təbii şəraitində suda həll olunmuş halda müxtəlif duzlar, qazlar və üzvi maddələr olmasından asılı olaraq bir litr suda 1q duz olduqda şirin su, 25q duz olduqda şortəhər su, bundan çox olduqda isə şor su kimi təsnifləşdirilir [3].

Azərbaycanda şirin su ehtiyatlarının məhdud olduğuna görə təbiətin əvəzsiz neməti olan sudan səmərəli istifadə bütün dövrlərdə aktual olubdur. Bəzi yaşayış məntəqələrinin su ilə təchizatı sistemlərinin orta əsrlərdə olduğu qeyd edilsədə su təchizatının ilkin inkişaf dövrü XX əsrin əvvəllərində baş vermişdir. 1917-ci ildə Xaçmaz rayonunun Şollar kəndindən Abşeron yarmadasına çəkilmiş uzunluğu 187,5 klometr olan Şollar-Bakı su kəməri və 1958-ci ildə Xaçmazdan Bakıya çəkilmiş ikinci kəmərin istismara verilməsi olmuşdur. Abşeronda sənayenin inkişafı və əhalinin artımı nəticəsində içməli suya artan tələbatı ödəmək üçün 1961-ci ildə Ceyranbatan su təmizləyici qurğular işə salınmışdır. Ötən əsrin 70-ci illərinə qədər Azərbaycanda həyata keçirilən bu su qurğuları paytaxt Bakıda yeni yaşayış massivlərinin salınması hesabına böyüməsi, sənaye sahələrinin inkişafı suya olan tələbatın artmasına səbəb oldu. Bu artan tələbatı ödəmək üçün hələ XIX əsrin əvvələrində Kür çayının suyunun Bakıya gətirilməsi barədə irəli sürülən layihənin işə salınmasına ehtiyac yarandı. 1969-cu il 14 iyul tarixində Azərbaycan Xalqının böyük oğlu Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçilməsi ilə respublikanın bütün həyatında olduğu kimi içməli su sektorunda da kəmiyyət və keyfiyyət dəyişiklikləri baş verdi. Əhalinin içməli su ilə təmin edən şəbəkələrin genişlənməsi, yeni su kəmərləri inşa edilməsi nəticəsində ölkə əhalisinin keyfiyyətli içməli su ilə təminatında geniş imkanlar açıldı. Ulu öndərimiz Heydər Əliyevin "Su verən, bulaq yaradan, çay açan hər bir insan həmişə xalqın, millətin, insanların məhəbbətini qazanır" dahiyanə fikrini 1969-cu ildə birimci dəfə hakimiyyətə gəldikdən sonra özü müvəffəqiyyətlə yerinə yetirilməyə nail oldu.

Bu sahədə ilk olaraq hələ 1968-ci ildə inşasına başlanılmış Kür su kəmərinin birinci növbəsi 1970-ci il 27 sentyabr tarixində, ikinci hissəsinin 1971-ci il 15 sentaybr tarixində Kür-Bakı magistral kəmərinin istifadəyə verilməsi oldu. Böyük dövlət xadimi Heydər Əliyevin yuxarıda qeyd edilən fikri bu gün də ölkə əhalisinin içməli suya olan tələbatının tam ödənilməsi fəlsəfəsinin əsasını təşkil edir. Xalqımızın ulu öndəri Heydər Əliyevin həmin fikiri 1991-ci il 18 oktyabr tarixində müstəqilliyini bərpa etdikdən sonra ölkənin qarşısında duran əsas sosial problemlərdən biri də əhalinin içməli su ilə təmin edilməsinin əsası olmuşdur. XXəsrin 70-80-cı illərində görkəmli dövlət xadimi Heydər Əliyevin təşəbbüsü və birbaşa rəhbərliyi ilə Kür sutəmizləyici Qurğular kompleks yaradıldı və emal olunan suyun Abşeron yarmadasına nəqli üçün magistral kəmərlərin çəkilməsi layihəsi, Bakıda "Böyük kanalizasiya layihəsi", Hövsan Aerasiya Stansiyası, "Sənaye zonası", "Şəhərkənarı" və "Sahil" kollektorları, Zığ kanalizasiya nasos stansiyası kimi tullantı su infrasturukturunun yaradılmasının xüsusi əhəmiyyəti olmuşdur. Həmin illərdə əhalinin içməli su ilə təmin edilməsi və tullantı su sistemlərinin yaradılması Azərbaycanın əksər şəhər və rayon mərkəzlərində də həyata keçirilmişdir. 1998-2002-ci illərdə ölkədə siyasi sabitlik bərqərar olunduqdan sonra "Böyük Bakının su təchizatı sisteminin yenidən qurulması layihəsi üçün Dünya Bankı və Avropa Yenidənqurma İnkişaf Bankı güzəştli kreditlə ayrılan 88,7 milyon dollar Kür və Ceyranbatan su təmizləyici qurğularında çoxsaylı məhəllədaxili nasos stansiyalarında əsaslı yenidənqurma işləri aparıldı, su təchizatının maddi-texniki bazası gücləndirildi [3].

Heydər Əliyevin sosial-iqtisadi inkişaf konsepsiyasını müvəffəqiyyətlə davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2003-cü ildən sonra da insan sağlamlığının qorunmasında xüsusi əhəmiyyəti olan içməli su təminatı və kanalizasiya xidmətlərinin istifadəsi yeni vüsət almışdır. Respublikada sosial siyasətin prioritet sahələrindən biri olan əhalinin içməli su təminatı və kanalizasiya xidmətlərini yaxşılaşdırmaq məqsədi ilə 2004-cü ildə "Azərsu" Açıq Səhmdar Cəmiyyətin yaradılması bu sektorda daha səmərəli geniş struktur islahatlarının həyata keçirilməsinə xüsusi önəm verdi. 2023-cü ilin əvvəlində strukturunda 14 minə yaxın mütəxəssis və işçisi olan "Azərsu" ASC ölkə üzrə 1748832 abunəçiyə su təchizatı və kanalizasiya xidmətləri göstərir. Bunların 1679880-i əhali, 68952-si isə qeyri-əhali abunəçiləridir. Ölkə üzrə abonentlərin 79,5 faizi, Bakı şəhəri üzrə 82 faizi, regionlarda isə 73,3 faizi fasiləsiz içməli su ilə təmin olunur. "Azərsu" ASC-nin balansında 21000 km uzunluğunda su, 10500 km uzunluğunda kanalizasiya və yağış suları xətləri vardır. Hazırda respublikanın bir sıra şəhər və rayon mərkəzlərində içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidənqurulması layihələri icra edilir. Respublika paytaxtının və ətarf bölgələrinin böyüməsi və yeni sənaye müəssisələrinin fəaliyyətə başlaması nəticəsində içməli suya tələbat artmışdır. Bakı şəhərini keyfiyyətli bulaq suyu ilə təmin etmək məqsədi ilə 2002-ci ildə ümumi milli lider Heydər Əliyev tərəfindən Oğuz-Qəbələ zonasında yeraltı suların öyrənilməsi

haqqında əhəmiyyətli tapşırıq verilmişdir. Oğuz-Qəbələ-Bakı su kəməri layihəsinin həyata keçirilməsini Ulu Öndərin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2007-ci ilin mart ayında həyata keçirildi. Oğuz rayonu ərazisində 100-ə yaxın qazılan artezian quyusunun suyu anbarlarda cəmləndirdikdən sonra yüksək təzyiqlə diametri 2m olan borularda uzunluğu 262,5km olan Oğuz- Qəbələ-Bakı su kəmərinə vurulur. Səkkiz rayonun ərazisindən keçən və Abşeron yarmadasına qədər uzanan su kəməri ilə Bakıya verilən suyun keyfiyyəti Ümumdünya Səhiyyə Təşkilatının standartlarına tam uyğundur. Oğuz rayonu ərazisindən Abşeron yarımadasına çəkilən özüaxımlı magistral su kəməri Bakı şəhəri əhalisinin içməli su təminatının sabitləşməsinə şərait yaradır. Əhalinin keyfiyyətli içməli su ilə təmin edilməsində 2011-ci ildə təməli qoyulmuş Ceyranbatan gölünün yaxınlığında ultrasüzgəc texnologiyasına əsaslanan yeni kompleksin 2015-ci ilin oktyabrında istismara verilməsini xüsusi qeyd etmək lazımdır. Belə ki, ən son texnologiyaya əsaslanan bu kompleks ənənəvi təmizləmə qurğularından fərqi ondan ibarətdir ki, avtomatik rejimdə mexaniki üsulla təmizləmədə heç bir kimyəvi təmizləmə aparılmır. Oğuz-Qəbələ-Bakı su kəmərinin və Ceyranbatanda istismara verilən bu yeni kompleksin işə salınması Kür çayında emal olunan və Bakıya ötürülən suyun bir hissəsinin ölkənin bir neçə rayonunda əhalinin içməli suya olan tələbatının ödənilməsinə imkan yaratdı.

Azərbaycanda yeraltı suların əhalinin içməli su, iqtisadiyyatın sahələrinin su ilə təmin edilməsində böyük rolu vardır. Azərbaycanın əsas artezian hövzələri Qusar-Dəvəçi düzənliyində, Alazan-Əyriçay vadisində, Gəncə-Qazax massivində, Şirvan-Qarabağ, Mil, Lənkaran və Naxçıvan dağətəyi düzənliklərindədir. Respublikanın iqtisadiyyatında yeraltı sulardan içmək üçün, məişət, texniki və suvarma məqsədi ilə geniş istifadə edilir. Ölkədə 1,5 mln hektardan çox suvarılan torpaq sahələri artezian quyu suları ilə suvarılır. Həmin torpaqların şoranlaşmadan qorumaq məqsədilə kollektor-drenaj sistemləri qurulur və meliorasiya tədbirləri həyata keçirilir. Əhalinin içməli su və texniki su ilə təmin etmək üçün çaylardan da istifadə edilir.

Yuxarıda qeyd edilənlərin həyata keçirilməsi nəticəsində 2005-2021-ci illərdə ölkənin sənaye məhsulu istehsalı strukturunda su təchizatı, tullantıların təmizlənməsi və emalı faktiki qiymətlərlə artımı olmuşdur [4].

Cədvəl 1. Sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyəri, faktiki qiymətlərlə, milyon manat [4]

Göstəricilər	*2005*	*2010*	*2015*	*2020*	*2021*
Bütün sənaye o cümlədən:	9309	27978	26369	37369,9	55229,1
Su təchizatı, tullantılarının təmizlənməsi və emalı	82,2	154,5	239,5	332,1	447,6

Su təchizatı, tullantıların təmizlənməsi və emalı 2021-ci ildə müqayisəli qiymətlərlə 2000-ci ilə nisbətən 41 faiz, 2005-ci ilə nisbətən 30 faiz, 2010-cu ilə nisbətən 61 faiz və 2020-ci ilə nisbətən 13,6 faiz artıq olmuşdur. Bu artım iqtisadi fəaliyyət növləri üzrə sənaye istehsalının strukturunda sahənin xüsusi çəkisi 2005-ci ildəki 0,2 faiz olduğu halda 2021-ci ildə bu göstərici 0,8 faizə kimi yüksəlmişdir. 2005-2021-ci illərdə digər yaxşı bir meyl özünü göstərmişdir [4] (cədvəl 2).

Cədvəl 2. Su təchizatı, tullantıların təmizlənməsi və emalının mülkiyyət növləri üzrə stukturu (faizlə) [4]

Göstəricilər	*2005*	*2010*	*2015*	*2020*	*2021*
Cəmi o cümlədən:	100,0	100,0	100,0	100,0	100,0
Dövlət mülkiyyəti	87,7	76,7	73,0	73,2	72,9
Qeyri-dövlət mülkiyyəti	12,3	23,3	27,0	26,8	27,1

Cədvəl 2- dən göründüyü kimi sənaye istehsalının bu sahəsinin mülkiyyət növlərinə görə strukturunda dövlət mülkiyyəti son 16 il ərzində 14,8 faiz azalmış, qeyri-dövlət mülkiyyətinin xüsusi çəkisi isə müvafiq olaraq artmışdır. İçməli su çatışmazlığı ilə yanaşı, suyun keyfiyyət göstəricisi də əsas problemlərdən biridir. Suyun keyfiyyəti fiziki-kimyəvi göstəricilərə əsasən müəyyənləşdirilir. İçməli suyun keyfiyyəti elə olmalıdır ki, suda olan zərərli maddələrin maksimal miqdarı insanların və gələcək nəsillərin həyat və sağlamlığı üçün təhlükə törətməsin. İçməli suyun tərkibi Ümumdünya Səhiyyə Təşkilatının, Avropa İttifaqının və MDB ölkələrinin birgə qəbul etdikləri standartlara uyğun olmalıdır. Ümumdünya Səhiyyə Təşkilatının (UST) ekspertləri qeyd edirlər ki, dünyada xəstəliklərin 80 faizi keyfiyyətsiz içməli su ilə bağlıdır. Çirklənmiş su qarın yatalağı, vəba, dizenturiya, maliyariya, sarı qızdırma və s. xəstəliklərin yaranmasına səbəb olur. Bunun qarşısını almaq üçün suyun keyfiyyət göstəricilərinin yaxşılaşdırılması həmişə diqqət mərkəzində saxlanılır və "Azərsu"ASC tərəfindən təbii su ehtiyyatlarının qorunub saxlanılması üçün bir sıra tədbirlər həyata keçirilir. Artezian suları iki su keçirməyən lay arasında yerləşdiyi və üstəki sukeçirməyən lay onu çirklənmədən qoruduğuna görə keyfiyyətli və təmiz su mənbəyi hesab olunur. Suya olan tələbat sürətlə artdığından Azərbaycanda çay, göl və s. su mənbələrinin təmiz saxlanması son dərəcə zəruridir. [5]

Nəticə. Son illər ölkənin iri şəhərlərində yaşayış massivi binalarının məhəllə və binadaxili su təchizatı sistemləri Abad məhəllə layihəsi çərçivəsində binaların su təchizatı sistemlərinin yenidən qurulması layihəsinə əsasən aparılması yaxşı təcrübədir. Onun geniş yayılması vacibdir. Belə ki, binaların həyətlərində uzun su xətləri çəkilərək binaların giriş xətlərinə birləşməsini geniş yaymaq lazımdır. Belə xətlərlə binalara suyun birbaşa paylayıcı xətlərdən verilməsinin təmin olunması ilə zirzəmilərdən keçən boruların ləğv edilməsinə səbəb olacaqdır. Yaşayış binalarının məhəllə və binadaxili su təchizatında hələlik məhəllədaxili nasos stansiayası vasitəsi ilə qrafiki rejimdə həyata keçirilir. Müasir layihələr çərçivəsində məhəllədaxili nasos stansiyalarında hidrofor tipli yeni nasosların quraşdırılması təcrübəsi vardır. Belə ki, məhəllələrdə çəkilən su xətləri binadaxili sistemlərə birləşdirilir və binalarda dik dayaqlar pilləkən qəfəslərinə çıxarılaraq buradan mənzillərin girişlərinə verilməsi ilə bina sakinlərinin 24 saat içməli su ilə təmin etməyə imkan verilməsini təmin edəcəkdir. Bir məsələni də qeyd etmək lazımdır ki, binadaxili su təchizatı sistemləri 2013-cü ildən "Azərsu" ASC-nin balansına verilib və ötən illərdə dövlət investisiyaları hesabına Abşeron yarmadasında və regionlarda yüzlərlə çoxmənzilli yaşayış binasının daxili su təchizatı sistemləri yenidən qurulması təmin edilibdir. Azərbaycan Respublikasının Prezidentinin təsdiq etdiyi "Su ehtiyyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı"na uyğun olaraq içməli sudan qanunsuz istifadə hallarının aşkarlanması, aradan qaldırılması, su itkilərinin və israfçılığın qarşısının alınması məqsədi ilə "Azərsu" ASC tərəfindən qəti inzibati və hüquqi tədbirlər həyata keçirilməlidir. Çünki, müasir dövdə qlobal iqlim dəyişikliyi Azərbaycanda da şirin su ehtiyyatlarının azalmasına səbəb olduğundan belə bir şəraitdə istər fiziki, istərsədə hüquqi şəxslər sudan israfçılıqla istifadə edilməsi yolverilməzdir.

Ədəbiyyat

1. Prezident İ.H.Əliyev: "İçməli su layihələri prioritet xarakter daşıyır" Azərbaycan Respublikası regionlarının 2014- 2018- ci illərdə sosial- iqtisadi inkişafı dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfrans, Su problemləri: elm və texnologiyalar jurnalı, N1, 15-20s. 2015
2. Səmədzadə Z., Azərbaycan İqtisadiyyatı 100 ildə I, II. Bakı, 442-451s. 2021
3. İmanov F.Ə., Ələkbərov A.B. Azərbaycanın su ehtiyyatlarının müasir dəyişmələri və inteqrasiyalı idarə edilməsi, Bakı. 2017
4. Azərbaycan Sənayesi. Rəsmi nəşr. Statistik məcmuə. Bakı, 22-23s. 2022
5. Azərbaycan Sənayesi. Statistik məcmuə. Bakı, 35-37s. 2011
6. Azərbaycan Sənayesi. Rəsmi nəşr. Statistik məcmuə. Bakı, 26-28s. 2022
7. Musayev Z.S., K.M Məmmədov., M.S Zərbəliyev. Su ehtiyyatlarının inteqrasiyalı idarə olunması, Bakı. 2009
8. Алиев А.Б. Экономика инженерных систем (и строительстве). Учебник для ВУЗов. Баку ААСУ, 56- 60с, 2015

9. İmanov F.Ə., Ələkbərov A.B., Azərbaycanın su ehtiyyatlarının müasir dəyişmələri və inteqrasiyalı idarə edilməsi, Bakı. 258-268s. 2017
10. Ağaev R., Əliyev S., Azərbaycanda içməli suyun keyfiyyətini və suya əlçatanlığı tənzimləyən standartlar və onların beynəlxalq standartlarla müqayisəli təhlili, Bakı. 7-22s, 2011
11. F.Ə.İmanov, A.B.Ələkbərov, Azərbaycanın su ehtiyatları və onların inteqrasiyalı idarə edilməsi// Xəzər Beynəlxalq Su Texnologiyaları konfransının materialları, Bakı, 116-122s. 2013
12. А.Г. Алиев, Альтернативные методы обеззараживания питьевой воды, Su problemləri elm və Texnologiyalar Beynəlxalq Resenziyalı Elmi Jurnal N2, 47-49c, 2016
13. www.stat.gov.az

References

1. Prezident I.H.Eliyev: “Ichmeli su layiheleri prioritet xarakter dashiyir” Azerbaycan Respublikasi regionlarinin 2014- 2018- ci illerde sosial- iqtisadi inkishafi dovlet Proqrami”nin icrasinin birinci ilinin yekunlarina hesr olunan konfrans, Su problemleri: elm ve texnologiyalar jurnali, N1, 15-20s. 2015
2. Semedzade Z. Azerbaycan Iqtisadiyyati 100 ilde I, II. Baki, 442-451s. 2021
3. Imanov F.E., Elekberov A.B. Azərbaycanin su ehtiyyatlarının muasir deyishmeleri ve inteqrasiyali idare edilmesi, Baki. 2017
4. Azerbaycan Senayesi. Resmi neshr. Statistik mecmue. Baki, 22-23s. 2022
5. Azerbaycan Senayesi. Statistik mecmue. Baki, 35-37s. 2011
6. Azerbaycan Senayesi. Resmi neshr. Statistik məcmue. Baki, 26-28s. 2022
7. Musayev Z.S., K.M Memmedov., M.S Zerbeliyev. Su ehtiyyatlarinin inteqrasiyali idare olunmasi, Baki. 2009
8. Aliev A.B. Ekonomika inzhenernyh sistem (i stroitel'stve). Uchebnik dlya Vuzov. Baku AASU, 56- 60s, 2015
9. Imanov F.E., Elekberov A.B., Azerbaycanin su ehtiyyatlarinin muasir deyishmeleri ve inteqrasiyali idare edilmesi, Baki. 258-268s. 2017
10. Ağaev R., Eliyev S. Azerbaycanda ichmeli suyun keyfiyyetini ve suya elchatanlighi tenzimleyen standartlar ve onlarin beynelxalq standartlarla muqayiseli tehlili, Baki. 7-22s, 2011
11. F.E.İmanov, A.B.Elekberov, Azərbaycanin su ehtiyatlari ve onlarin inteqrasiyalı idare edilmesi. Xezer Beynelxalq Su Texnologiyaları konfransinin materiallari, Baki, 116-122s. 2013
12. Aliev A.G. Al'ternativnye metody obezzarazhivaniya pit'evoj vody, Su problemleri elm ve Texnologiyalar Beynelxalq Resenziyali Elmi Jurnal N2, 47-49s, 2016

Redaksiyaya daxil olma/Received 17.01.2023
Çapa qəbul olunma/Accepted for publication 17.02.2023

Məqaləyə istinad:. Əliyeva R.T., Babaşov Ə.M., Qurbanova Q.S. Əhalinin içməli su ilə təminatının əsas istiqamətləri. Elmi Əsərlər jurnalı AzMİU, s.138-143, N1, 2023
For citation: Aliyeva R.T., Babashov A.M., Gurbanova G.S. The main directions of providing the population with drinking water. Journal of Scientific works/ Elmi eserler. AzUAC, p.138-143, N1, 2023